## ƏDƏBİYYATŞÜNASLIQ

Abasov Abdulla33

B.VAHABZADƏNİN POETİK DÜNYASI HAQQINDA

Qədim-ulu tarixdən bu günlərə, sələflərdən xələflərə, klassiklərdən müasirlərə qədər olan sənət-elm-sənətkarlıq,ədəbiyyat və incəsənət dünyasının hər bir hikmətindən zövq alan,nəticə çıxaran, klassik ənənələri qoruyan, yaradıcı şəkildə davam və inkişaf etdirən az-az, daha dəqiq desək, tək-tək ustadlar olub ki,onlardan biri də özünəməxsus, xüsusi və bənzərsiz poetik uslubu olan filosof şair Bəxtiyar Vahabzadə idi. Bu kiçik məqalədə müqayisələr-ümumiləşdirmələr və tezislər şəklində deyilən fikir və mülahizələr Bəxtiyar Vahabzadənin ədəbi-bədii irsindən qaynaqlanan, onun xüsusi bədiilik və fəlsəfi dərinliklə ifadə etdiyi müdriknamələrə əsaslanır, özü də möhtərəm prezidentimiz İlham Əliyevin sərəncamı ilə nəşr olunan on iki cildlik əsərlərindən alinan təəssüratların az bir qismini əks etdirir.

Bəxtiyar Vahabzadənin on iki cildində toplanan əsərlərin müəyyən bir qismi Sovet İmperiyasının dəhşətli-gərgin vaxtlarında yazılan, uzun müddət sandıq ədəbiyyatı kimi qalan-qorunan, şairin "sənətkar və zaman","yazıçı və vətəndaşlıq borcu" mövqeyini göstərən poetik nümunələrdir. Bəxtiyar Vahabzadənin özü bu əsərləri "sandıqdan səslər" adlandırmışdır. "... o dəhşətli illərdə çapa verə bilmədiyim, yalnız yazmaqla təsəlli tapdığım bu şeirlər qəlbimin fəryadı, yəni o zamanın ağrı-acılarıdır. 1950-ci illərdən Sovetlər İttifaqı dağılana qədər yazılmış və arxivimdə gizlədilmiş bu şeirlərin bir qismi ilk dəfə "Nağıl-həyat"(1991), "Ümidə heykəl qoyun"(1993), "Körpü çaydan uzaq düşüb"(1996) kitablarımda, tam halda isə 7 cildlik əsərlərimin 6-cı cildində (2003) "Sandıqdan səslər" başlığı altında şap olunmuşdur..." Klassik və müasir ədəbiyyat tarixlərindən də məlumdur ki, dünya –zaman-insan haqqında çoxlu əsərlər yazılmış, müxtəlif fikirlər,mülahizələr söylənilmişdir:

Fikirlər yığılır beynimdə qat-qat,
Cavablar qorxulu, suallar yasaq.
Həyatı qanana ögeydir həyat,
Onu qanmayana doğmadır ancaq,

Sözdə haqq, ədalət,demokratiya adı ilə danışan, necə deyərlər"dildə Allah-ürəkdə Şeytan" gəzdirən,daima ikili siyasət yürüdən şovinistvqərb dünyasının əsl siması tədricən açılaraq saxtakarlığı üzə çıxır. Ölkələrini bürüyən narazı xalq hərakatları, xalqla dövlət arasında yaranan dərin uçurumlar qərbin gündən-günə artmaqda olan şovinist siyasəti, təxribatçı xarakteri " başqa dövlətlər-xalqlar-millətlər üçün qazdıqları quyuya özlərinin düşməsi", qərb demokratiyasının əsl mahiyyətini-mürtəce xarakterini üzə çıxarır, necə deyərlər "cidanı çuvalda gizlətmək olmaz". Bu faktın kökləri çox-çox qədimlərə gedib çıxır. Erməni-şovinist Qərb düyası nə qədər çildini dəyişsə də, məzmun-mahiyyət etibarilə xain məsləyini ört-basdır edə bilmir. Tarixən də indi də belədir.

Qədim dünyanın dahiləri-ustadları böyük cəsarətlə "Dünya ömrümüzdən keçən bir "An"dır" deyiblər. Onu da qeyd ediblər ki, bütün uğurlar-şadlıq-firavanlıq-sevinclər, ümidlər-arzular və rahatlıq eləcə də, kin-kudurət, qəzəb və nifrət, bütün ağrılar-acılar bu "An"ın içərisindədir. Bu "An" tarixən yaşadığımız dünyaın "ağ və qara" günlərin, əlçatmaz, dərk olunmaz tilsimlərini-məqamlarını, əqlin gücü çata bilmədiyi sirli-soraqlı gedişlərini, ulu tarixin açılmamış səhifələrini, bütün canlı və cansız varlıqların görünməyən incəliklərini qoruyub saxlayan, nə vaxtsa dərk və tədqiq olunacxağı günü gözləyən talelər-alın yazısı, bəxt-ömürlər-gəlimlər-gedimlər məkanıdır. Dahilərin dünya-zaman-insan mənasında işlətdiyi bu "An" haqqında çox deyilib,çox yazılıb. "An" isə indiyə qədər yenə də "An" olaraq qalır.

Dərk olunduqca qapanan, açıldıqca bağlanan bu sirli-sehrli-tilsimli "An" ın daha çox insan mənasında qəbul olunan,yəni dünya və insanın sirri ulu Tanrının əlindədir. Böyük Allah bu sirri insan düzələn vaxtda açaçaq. Tanrı böyükdür, mərhəmətli və səxavətlidir. İnsana düzəlmək üçün ürək-ağıl-hiss-duyğu və idrak verib, bu "An"ı tam olmasa da misqal-misqal aşmaq üçün ömür və vaxt verib. Naşükür insan, öz mənfur əməlləri ilə bu "An"ı "açmaq və düzəltmək" əvəzinə onu daha da dərinləşdirib, qapalı, ziddiyyətli vəziyyətə salıb. Üləmalar, ənbiyalar,övliyalar, nəbilər, yuz iyirmi dörd min peyğəmbər bu sirli-tilsimli "An"ın mövcudluğunu qəbul etsələr də, böyük tanrının tələb və tövsiyyələrindən kənara çıxmamaq xatirinə onu açmaq həvəsində olmamışlar. İnsanın "düzəlməsini", düzələn gününü gözləmişlər. "An"ı sirli-sehrli-tilsimli vəziyyətə salan insan isə düzəlmir ki, düzəlmir. Nəfsi-əmmarənin əlində əsir olan insan yalniz o zaman "düzələcək" ki, Allahın əmrinə, tələb və göstərişlərinə bütün varlığı ilə əməl edəcək, sidqi-ürəklə "Qurani-Kərim"ə bağlanacaq, pis əməllərdən uzaqlaşmaq üçün özündə güc taparaq tövbə edəcək. O zaman "an" bütün sirlərdən-tilsimlərdən azad olacaq. Onda:

"Kökü kəsiləcək nifrətin,kinin,
Loğmanlar olacaq onda hökmran.
Hamı bir ağızdan deyəcək yəqin,
Yaşasın dünyamız, yaşasın insan." Dahi Füzulinin dünyadan narazı və narahat olan insana səbr vermək xatirinə dediyi:

"O qəmlər ki, mənim vardır,bəirin başına qoysan çıxar ,kafir cəhənnəmdən gülər, əhli-əzab oyanar" məşhur kəlamı indi də öz qüvvəsində qalır. Dünyanı qorxunc vəziyyətə salan insan bilməlidir ki, son anda "An"ın qurbanı insanın özü olur. Odur ki, Dünya-zaman haqqında deyilən xoş-fərəhli-sərt-kinayəli fikirlər bir başa insana aiddir. Məhsəti xanımın "Dünya bir saman çöpünə dəyməz", ustad M.Şəhriyar "Heydərbaba, dünya yalan dünyadı", M.Arazın "Dünya sənin,dünya mənim, heç kimin" məşhur və məlum kəlamları insanın ağıllı, ayıq-sayıq olması üçün deyilmişdi.

Bir də görürsən ki, bir anda onun,
Nifrətə çevrilir məhəbbəti də.
Qırx il can dediyi "əziz" dostunun
Demə xəyanətmiş sədaqəti də.

---

33 Fed,nhofessor BDU

Nağıllarda,əfsanələrdə,dini mühakimələrdə də dünya və zaman, insan mənasında işlədilib. Ağ qoç-xeyirxah insan-Habillik, qara qoç-bədxah insan-Qabillik kimi verilib. Hər ikisi bir adla- Dünya adı ilə adlanıb. S.Vurğunun "bir yandan boşalıb, bir yandan dolan dünyası" da insandır. Dünyaya gələn də, dünyadan gedən də insandır. Dünyanı işıqlı, qaranlıq edən də, əyən də, düzəlməyə qoymayann da dillər əzbəri, səxavətli edən də insandır. Habilin-Qabilin nəvə-nəticələri, törəmələridir. Bunlar dövran keçdikcə müxtəlif formalarda; Hörmüz-Əhriman-Xeyir-Şər və s. varlıqlar şəklində görünüblər. Hansı daha güclü olubsa dünya o adla da adlanıb.Bütün bəşəriyyət nəfsi-əmmarənin əlindən, Qabillikdən xilas olmağa çalışıb və bu arzu ilə yaşayıb. Azərbaycan və müasir dünya üçün Qabillik erməni cildində zühur edib. Onlar say etibarilə az olsalar da dünyaya səpələnib qorxunc əməlləri ilə ona meydan oxumaqla məşğuldurlar. Dünyanı çaxnaşmaya salan erməni, öz bədbəxtliyini bilə-bilə əməllərindən əl çəkmir. Ermənin gözü sankı bağlanıb, öz ölümünün yaxınlaşdığı günü belə görmür. Bilmir ki, "özgə atına minən tez düşər". Hal-hazırda ermənilər müxtəlif donlarda, müxtəlif şəkillərdə, gizli –açıq formada fəaliyyət göstərir. Xəyanət-işğalçılıq yolu ilə torpaq əldə etməkdən başqa daha dəhşətli məqsədə çatmaq üçün yollar axtarır. Nə yaxşı ki, bəxt, alın yazısı-ömür Tanrının əlindədir. Əgər bunlar ermənin, ümumən mənfur çoxsifətli erməniپərəst Qərbin əlində olsaydı onda görün dünya nə vəziyyətdə olardı. Başdan başa erməniləşərdi. Qərb ölkələri erməni fitvasını bilsə də, ikili siyasət yürüdür, erməni təxribatını, erməni xəyanətini dəstəkləyir, şovinist siyasətbazların haqq ilə nahaqqı eyni gözdə görməsi, ədalətə-haqqa göz yumması bəşəriyyəti faciəyə gətirib çıxarır. Xəyanətin əli ilə dünya-zaman təxribatla, haqsızlıqla üz-üzə qalıb:

Ünvanı dəyişib rəzalətin də,
Qaymaq da satılır şor qiymətində.
İndi sədaqətin səltənətində

Əyləşib hökm edir xəyanət- Allah! Budur ikili siyasətin əsl sifəti. Ona görə də mənfur erməni, ona dəstək verən, ondan daha dəhşətli, xain olan şovinistlər vəhşiliyi-qəddarlığı müdafiə edənlər dünyasında erməni həlalik sərbəst hərəkət edir, müasir dünyada son dərəcə qorxunc-hiyləgər görkəmdə- iblis-şeytan-satana-mefestofel cildində görünür, nəfsi-əmmarə şəklində fəaliyyət göstərir. Bunlar zahirən həlim, daxilən xəbis təbiətləri, yaltaq-hiyləgər sözləri ilə insanı ələ alır, sonra tora salırlar. Bəxtiyar Vahabzadənin "Şəhidlər","Şənbə gecəsinə gedən yol" əsərlərində erməni siqlətinin dünya-insanlıq üçün bir bəla olduğu dərindən əsaslandırılır. Erməni qorxunc, qəddar olmaqla yanaşı son dərəcə yaltaq, satqın və qorxaqdır. O, Azərbaycan xalqının qürur hissindən, cəsarət və şücaətindən, məğrur-dönməz vətəndaşlarından, dövlət siyasətimizin yenilməz qüdrətindən, türk dünyasının vahid birliyindən dəhşətə gəlir, gündən-günə əriyir, məhvə doğru gedir. Bu gedişatın sonuna çox az qalıb. Erməni tarixən də mənfur millət, satqın dövlət kimi tanınıb. Dünya tarixini, humanitar yaradıcılıq sahələrini vərəqləsən bu haqda nə qədər fakt görərsən. Böyük N.Gəncəvi nahaqdan demirdi ki, "bir insanın olmaz iki ürəyi, iki ürəklinin düz olmaz dili" və yaxud "insanla yaşamaq mərddir, kişidir, kimsəni sevməmək namərd işidir". Böyük-müdrik xalq, millət isə nankorlara-namərdlərə dönə-dönə çatdırıb ki, "sən saydığını say, gör fələk nə sayır". Haqdan gələn kəlamları, müdriknamələri deməklə qurtaran deyil. .. Bunları deyən də insandır, onlara əməl etməyən də erməni cildində olan insanlardır. Bu o deməkdir ki, namərd, ləyaqətsiz, nankor olan erməni, yer üzündə olan bütün vəhşiliklərdən-cani və yırtıcılardan daha dəhşətlidir. Şeytanlardan-iblislərdən daha hiyləgər, daha mənfur tiplərdir. Ona görə də ustad H.Cavid "hər kəsə bais olan insan nədir?-İblis" deyə həyəcan təbili çalırdı. Bu, müsair zaman faktı kimi son günlərdə daha aydın görünməkdədir. Yolunu azanlar artdıqca, Tanrının iradəsindən –tələb və tövsiyyələrindən kənara çıxanlar çoxaldıqca, dünyanın"əyilmək-zədələnmək"təhlükəsi ilə üzləşməməsi üçün Ulu tanrı aqil insana"Nahaq qalxar, yeriməz"misalını göndərdi. Böyük N.Gəncəvinin "Haqsızlıq haq ilə olarsa düşmən, haqq yerin tapacaq, haqsız peşiman" kəlamı dillər əzbəri oldu. Ustad bütün aqilləri səbrli-təmkinli, ehtiyatlı olmağa səslədi. Dedi ki,: "Əlində yumşalsa dəmir bunu bil, tədbirlə yumşalır, hiddətlə deyil". Bu, ustada görə şərə qələbə çalmağın tanrı məsləhəti-tanrı yolu, Haqq-ədalət yoludur. Aqil və cahil insanın birgə yaşadığı başı bəlalı dünyada sahili-salamata çıxmaq üçün ədalət-hürriyyət-inam-ümid-cəsarət-ləyaqət və qeyrət yoludur, aqillərə verilən şans yoludur. Bu yol, "Dust bipərva, fələk birəhm, dövran bisükün. Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun", "Vəfa hər kimsədən kim, istədim ondan cəfa gördüm", "Salam verdim, rüşvət deyildi deyə almadılar" və yaxud

"Dünya işinin mədarı çoxdur,
Heç kimsəyə etibarı yoxdur.
Eylər birisin sahibi-tac,
Ol birisini dəxi ona möhtac."

M.P.Vaqifin "Müxtəsər kim böylə dünyadan gərək etməz həzər", S.Mənsurun "Görmədim bir zərri-xalis butiyi nasutidə", Q.Zakirin "Laçın yatağıdır bizim məkanlar", və s. müdriknamələr insan əməli ilə korlaşan zamanlarından azad olmaq üçün aqillərə tanrının verdiyi, ustadların dönə-dönə xatırlatdığı mərdlik-cəsarət-qeyrət-ədalət yoludur. Şərəfli-müqəddəs-çətin-əzab-əziyyətli olsa da əbədi yoldur. Dünyanı-"Qurani-Kərim"ə sadiq olanları yaşadan-qoruyan yoldur. Bu yolda azmaq, geri çəkilmək facıəyə bərabərdir. Ermənilər indi bu faciəni yaşayırlar! Faciə isə günü-gündən dərinləşir, sona yaxınlaşır...

Bir faktı, bir həqiqəti yaddan çıxartmaq olmaz! İnsana ömrü ulu tanrı verir. Onun alın yazısını ana bətnində yazır. Namərd insan-xain qərb dünyası nə qədər çalışsa da, nə qədər çapalasa da haqdan gələn bu qanunu_bu yazını poza bilməz. Son anda, yekun sözü, yekun hökmü ulu Tanrınındır. Bunu unudan, haqqı dananlarla-tanrıya inanan və güvənən insan sorğu-sual qarşısında dayanacaq. Bəxtiyar Vahabzadənin ədəbi-bədii irsindən qaynaqlanan bu fikirlər masir dünyamızda ildən-ilə daha da müasirləşir, mənfur qərbin ikiüzlü siyasətinə nifrətlər oyadır. İnsan taleləri ilə oynayan, rəqs edən qərb-erməni işbazlarının, güya dövlətlər arasında anlaşma yaratmaq üçün yaradılan Minsk qrupunun ikiüzlü-xain mövqeyini ortaya qoyur.

Bəşər tarixində bəlalı insan,
İki qütb önündə çox dayanıbdı.
Haqdan yapışanlar köçüb həyatdan,
Həyatdan qopmayan haqqı danıbdır.

Yaşadığımız bu ikili insan dünyası hələ uzun əsrlərdir ki, "öz atını çapır". Tanrının isə səbri çox böyükdür. "Gec eyləyər, amma ki, güc eyləyər". Vay o gündən ki, tanrının səbri tükənsin. Onda Həzrəti İsrafilə surunu çalmağı əmr edəcək...Tanrının "hər iki; cənnət və cəhənnəm qapıları taybatay açılacaq, hamı Sırat körpüsündən keçəcək! Burada şah-nökər, varli-kasıb,

zalım-məzlum bütün dinlərdən olanlar arasında fərq olmayacaq. Hamı Tanrı haqqı-sinağı, "haqq-ədalət" divanı qarşısında qalacaq, öz əməllərinə uyğun qiymətləndiriləcək:

Gözümüz önündə arzular, kamlar,
Narahat dünyada dinclik olarmı?
Ürək sındırmayın, siz, ey insanlar,
Bülbül yuvasına daş atılarmı?

Bu kiçik yazı, mənim, Bəxtiyar Vahabzadə poeziyasını vərəqlədikcə gəldiyim fərdi nəticələr-düşüncələrimdir. Onu da bilirəm ki, Bəxtiyar Vahabzadə lirikası mənim düşüncələrimdən daha dərin, daha fəlsəfi, daha füsünkardır. Nəzərə alsaq ki, Bəxtiyar Vahabzadə haqqında çox deyilib,çox yazılıb lakin o, tam kəşf olunmayıb, bu faktdır. Çünki, Bəxtiyar Vahabzadə sənəti yalnız bədii-fəlsəfi sənət deyil, o, dərinlik, millilik, bəşərilik sənəti olmaqla yanaşı həm də Haqq-Ədalət-Əbədilik sənəti-dir. ..Bütövlükdə Dünya-Zaman-İnsan haqqında olan əbədi düşüncələr sənəti-dastanıdır.

Bəxtiyar Vahabzadənin çoxsaylı cildlərində-ədəbi-bədii, elmi irsində qədim ulu tarixdən, qərinələrdən, tanrı kəlamlarından tutmuş, yaşadığı müasir dünyaya-insan amilinə sistemli bir səyahət var. O, sələflər dünyasından, islami dəyərlərdən, müasir müdriknamələrdən bəhrələnsə də, heç kimi təkrar etmədən, yüksək elmi və bədiiliklə əbədi mühakimələr söyləyən, filosof alim cə sənətkar kimi XX əsrin şeir dünyasını zənginləşdirdi, əsrinin poeziya səltənətinə əbədilik qazandırdı. Müasir insan və dünya ilə bağlı qənaətlərini birbaşa-açıq deməyi bacardı:

Bəxtiyar,qüdrətin əqlə güvəndi,
Göylərin əsrarı yerlərə endi.
Barmaqdan asılıb taleyi indi,
İnsan əməlinə kaş dözə dünya-dedi!

Bəxtiyar Vahabzadə sinkretik yaradıcılığa malik sənətkar idi. Onun ədəbi-bədii irsini zənginləşdirən poeziyası, poemaları, elmi-nəzəri əsərləri, dramaturgiyası ilə yanaşı güclü vətəndaşlığının da müstəsna rolu olmuşdur. Əlbəttə, bu möhtəşəm yaradıcılıq sahələrinin hər biri xüsusi araşdırma və tədqiqat mövzusudur. Özü də bir tədqiqatçının yox, bir neçə araşdırıcının , institutun işidir. Biz sadəcə olaraq Bəxtiyar Vahabzadə irsinin movzu, tematik zənginlik səviyyəsini nəzərə çatdırmaq məqsədilə çoxsaylı cildlərdə yaşayan ustadın sənət dünyası barədə tezislər şəklində tam olmasa da bəzi ümumiləşdirmələr elədik. Baş-əsas mövzu kimi onun müasir dünya və insa anlayışına münasibətini nəzərə çatdırmağa çalışdıq:

Min rəngi var, min donu var,
Neçə-neçə oyunu var,
Nə əvvəli-nə sonu var,
Yalan dünya, yalan dünya

Və yaxud müasir insanı sözdən çox, əməldə görmək istəyəb şair, sonda bütün insanları yaşadığı zamanı-dünyanı qurumağa çağırırı:

İnsan idrakının yaratdıqları,
İnsan idrakının hədəsindədir.
Gəlin, ay insanlar birləşək barı,
Dünyanın taleyi məndə, səndədir.

Bəxtiyar Vahabzadənin cildlərini vərəqlədikcə onun müasir dünya və insan haqqında olan çoxsaylı mülahizələrinin poetik və fəlsəfi ümumləşdirmələrinin şahidi oluruq. Onun çox cildlik əsərlər toplusu, böyük qırğız sənətkarı Ç. Aytmatovun "Həyat nədir" sualına poetik, həm də fəlsəfi cavabıdır.

Bəxtiyar Vahabzadənin "Sandıqdan səslər" şeirləri; "Hörümçək tor bağladı","Belə qalmaz","Diz üstə", "Səbr elədik", "Lal-kar", "Başqasının yasında", "Özüm özümü dandım", "Dünyanın", "Yalan hakim olub". "Haqqı yox", "Soz olub" və digər əsər-lərində "Mənəvi-əxlaqi-kamilliyə"böyük ehtiyacı olan,şovinist siyasətin, qərbin əlində oyuncağa çevrilən narahat dünyanın – həyatın həyəcan səsləri eşidilir. "Sözüm haqq olduğu halda,necə danım haqqımı,tanrım,nahaq işdən saxla məni " deyən Bəxtiyar Vahabzadə:

Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.
Oğrular,əyrilər zəmanəsində,
Əyrilik sayılır fərasət, Allah! –

Budur ermənipərəst qərb dünyasının siması, budur güya "ədaləti bərpa edən" Minsk qrupunun mövqeyi. Bəxtiyar Vahabzadə poeziyası lirik-romantik, fəlsəfi olduğu qədər də milli-bəşəri vətəndaşlıq poeziyasıdır.

Bəxtiyar Vahabzadə həm də lirik-romantik sənətkar idi. Onun bütün yaradıcılığı insanın-dünyanın taleyinə, əmin-amanlığına ünvanlanıb. O,bütün yazılarında xoş günlər, xoş arzularla, xoş xəyallar və ümidlərlə yaşayıb. O, böyük lirik idi. Deyəndə ki, "Köçür durna qatarı, o baharda dönəcək, ötən günlər dönəydi durna qatarları tək" bu lirik-romantik, poetik mətndə həm tarix-klassika,həm müasirlik, daha xoş günlər arzusu, həm də sakit-əmin dünya, pak-kamil insan arzusu var. Belə sənətkarı olan xalq alqışa layiqdir.

Ədəbi növ və janrlarla zəngin olan "Yaradıbdı inam məni,mən inamın övladıyam"deyən, Bəxtiyar Vahabzadə sənəti lirik-romantik,psixoloji-fəlsəfi və sosial-milli quruluşa, məntiqi poetik sistemə malikdir. Milli ruh, milli zövq, milli metodologiya ilə mayalanan bu bədii sistemdə dövr də, zaman da, təbiıt və insan da, hətta adi, kiçik detallar, hadisə,əhvalat və vəziyyətlər belə, millilikdən bəşəri səviyyəyə yüksəlir, müasir tələblər, düşüncələr və ehtiraslar kontekstində bədii həllini tapır. Bir də ona görə ki, ilk əsərlərindən ədəbi-bədii kateqoriyaların bütün tələb və prinsiplərinə yüksək səviyyədə cavab verən, daima özündən narazaı olan Bəxtiyar Vahabzadə, sənətin-poeziyanın ədəbi və əzəli tələbini təbiilik və səmimiyyətdə: şeiri şeir, şairi şair eləyən poetik qanunlarda görüb, ona əməl edib, sədaqətli olub, onu qoruyub. Bax, müasirlik də, əsl realizm də elə budur. Bəxtiyar Vahabzadə sənətində sevinc və kədər, cahilliklə aqillik, nadanlıqla müdriklik üz-üzə dayanır, bir kökün qoşa budaqları kimi zamandan-zamana, dövrandan-dövrana keçərək yaşamaq, özünü haqlı saymaq uğrunda mübarizə aparır. Bəxtiyar Vahabzadə dünyanın hər iki üzünü, hər şeyə ad qoyan insanda, onun əməllərində görür. Belə mülahizələrin gücü bir də ondadır ki, onlar öz lirik-psixoloji zənginliyini, öz başlanğıcını, sosial, hissi-idrakı zamandan, ictimai-fəlsəfi düşüncələrdən

alır. Belə sənət nümunələrində yalnız hisslər, duyğular ümumiləşmir, insan ağlı, insan idrakı və hissləri imtahana çəkilir. Poetik "mən" kimi çıxış edən müsbət ideyada, obrazda –insanda birləşən fəlsəfi mühakimələr sadə reallıqlar şəklində oxucularla bir növ dialoqa girir, poetik düşüncə, reallıq və həqiqətlər sanki sıraya düzülür-əl-ələ tutur. "Fikir qanadlarım", "Dayan insan", "Taleyin səsi", "Axı dünya fırlanır" və daha nə qədər poetik nümunələrdə, "Gülüstan" əsərində "Dünyanın əlindən dad çəkən insan", "Nəələr çəkməmişdir bu qara torpaq", "Bəxtiyar, könlümə hey dedim kiri", "Mən fikrə çevrilmişəm" və bu qəbildən olan daha nə qədər sərrast deyilmiş misralarda oxucu mütəfəkkir şairin dünyaya-insana demək istədiyi müasir fikirlər, reallıqlarla üz-üzə qalır, düşündükcə düşünür. Bəzən idrakına güc gələrək itirdiyi fikir zəncirini bərpa etmək üçün yaddaşını köməyə çağırır:

Bəxtiyar, könlümə hey dedim kiri,
Özümü dəfn etdim mən diri-diri.
Qovmaq istədikcə xatirələri,
Fikrimin sapına düzdü yaddaşım-

deyərkən insanı özünü yaxşı tanımasını ya olduğu kimi görünməsini, ya da göründüyü kimi olmasını arzu edirdi:

Köhnə hava içində
Ürək susur, boğulur.
Kölgədə yatanların
Öz kölgəsi yox olur.

Bir xatirəni demək istəyirəm. Qoy yaddaşlarda qalsın. Sovet dövrü idi. Azərbaycan da başqa respublikalar kimi müstəqil deyildir. Yuxarıdan- İttifaqdan idarə olunurdu. Xalq şairi N.Həsənzadə bu dövr haqda yaxşı deyib:

İllər yaman tökdü qaş-qabağını,
Qurtara bilmədik qəm ilə yaşdan.
Ancaq yüz illərlə yad bayrağını,
Asdıq evimizdən, öz qapımızdan.

Bəxtiyar Vahabzadə ilə görüş keçirilirdi. Azərbaycan ədəbiyyatı tarixi kafedrasının üzvü, görkəli müəllim, Füzulişünas Kamil Mirbağırov çıxış etmək üçün söz aldı və Bəxtiyar Vahabzadəyə həsr etdiyi bir bəndlik şeirini deyib çıxışını qurtardı. O bir bəndlik şeir budur:

Hər kim sual etsə sənə, de, bəxt diyarısan,
Yox, taleyin tamam deyilsə bəxti yarısan.
Mən, bəxti kəm Füzulilərin yadıgarıyam,
Sən, bəxti yox diyarımızın Bəxtiyarısan.

Bəxtiyar Vahabzadə bu bir bəndlik şeiri çox yaxşı qarşıladı. Çünki o, şeir-poeziya vurğunu olduğu kimi, həm də əsaslı-yerində-vaxtında deyilmiş söz-fikir xiridari idi. Azərbaycan xalqı, bütün türk dünyası Bəxtiyar Vahabzadəni çox istəyirdi.

Allah Bəxtiyar Vahabzadəyə rəhmət eləsin, qəbri nurla dolsun-Amin!.

Ədəbiyyat

Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri 2 cilddə Bakı, 2006.
Bəxtiyar Vahabzadə. Əsərləri. 12 cilddə Bakı, 2010.